# Vətən mənə oğul desə

***Saatlı rayon mədəniyyət sarayında keçirilən tədbirlər daima tamaşaçı kütləsinin diqqət mərkəzində olur. Bundan ruhlanan sarayın kollektivi tədbirlərin rəngarəng olması üçün var qüvvəsi ilə işləyir. "Ağsaqqallarla görüş", "Rayon ziyalıları ilə görüş", "Qarabağ veteranları ilə görüş", "Qarabağ əlilləri ilə görüş", "Üç nəslin görüşü", "Zaman, Heydər Əliyev və biz", "Məktəblilərlə veteranların görüşü" və sair tədbirlər bu gün də mədəniyyət sarayının gündəmində duran tədbirlərdəndir.***

"Vətən mənə oğul desə nə dərdim" adlı tədbirin təhsil ocaqlarında keçirilməsi ənənə halını almışdır. Məktəblilər arasında aparılan "Vətən mənə oğul desə nə dərdim" ədəbi-bədii musiqili diskusiya bu gün çox böyük maraqla qarşılanır. Mövzunun mahiyyəti sözsüz ki, adından da görünür. Tədbirlərdən biri Mollavaizli kəndində keçirildi və məktəblilərin marağına səbəb oldu. Mollavaizli kəndində 1930-cu ildən əsası qoyulan məktəb 1962-ci ildə əsas məktəb kimi fəaliyyət göstərir. İndiyə qədər məktəbin 75 nəfər ali və orta ixtisas təhsilli məzunu olmuşdur. 2003-2004-cü tədris ilində məktəb Rayon İcra Hakimiyyətinin başçısı Gülhüseyn Əhmədovun bilavasitə diqqəti və qayğısı sayəsində tikilib istifadəyə verilmiş 320 yerlik yaraşıqlı binaya köçmüşdür. Hazırda məktəbdə 196 nəfər şagird təhsil alır.

Məktəbə 1987-ci ildən Fərman Manafov rəhbərlik edir. Keçən illər ərzində o, pedaqoji kollektivi düzgün istiqamətləndirməklə məktəbi rayonda qabaqcıl tədris müəssisələrindən biri kimi tanıtmışdır. Rayon Mədəniyyət Şöbəsinin müdiri Akif İslamovun və Təhsil Şöbəsinin müdiri Şamil Nurəliyevin məktəb haqqında söylədikləri yüksək fikirlər də buna sübutdur.

Məktəbdə şagirdlərin vətənpərvərlik tərbiyəsinə də xüsusi diqqət yetirilir. Bu istiqamətdə tez-tez tədbirlər keçirilir. Aktyor və rejissor Mehdi Mehdizadənin rəhbərliyi ilə "Vətən mənə oğul desə nə dərdim" başlığı altında keçirilən tədbir də bu qəbildəndir. Bu tədbirlərdə müğənnilər Ağa-zadə Allahverdiyeva, Könül Məmmədli, aktyor İlyas Əliyev, sintizator Natiq Ağayev və Raqif Mirzəyevin ifaları daha çox maraq doğurur.

**A.Allahverdiyeva**



